## “Hava limanlarında gözləmə zalları” Aksiyasının Qaydaları

### Təriflər və anlayışlar

**Hava limanlarında gözləmə zalları** – hər hansı şəxsə hava limanlarında biznes zallarına girmək imkanı verən xüsusi xidmətdir.

**QR-kod** – Xidməti əldə etməyə imkan verən xüsusi koddur.

**Aksiya –** “Hava limanlarında gözləmə zalları” adlı reklam aksiyasıdır.

**Bank** – müvafiq bank lisenziyası əsasında Ukraynanın, Gürcüstanın və ya Azərbaycan Respublikasının, Belarus, Tacikistan, Özbəkistan, Ermənistan, Qazaxıstan, Moldova, Qırğızıstan, Albaniya, Bosniya və Hersoqovina, Kosovo Respublikası, Şimali Makedoniya Respublikası, Monteneqro və ya Serbiya Respublikasının müvafiq ərazisində bank xidmətləri göstərmək üçün müstəsna hüquqa malik olan hüquqi şəxsdir.

**Proqram –** Bank tərəfindən müəyyən edilmiş konkret dövriyyə meyarlarına cavab verən, hava limanlarındakı gözləmə zallarından pulsuz istifadə etmək imkanı verən xüsusi Tərəfdaş proqramıdır.

**Verifikasiya cihazı** – QR kodu oxumağa imkan verən hava limanında quraşdırılmış xüsusi cihazdır.

**Sifarişçi** - ABŞ, CA 94404 – 2775, Foster City, Metro Center Boulevard , 900 ünvanında yerləşən Visa International Service Association.

**Kartlar** – Bank tərəfindən buraxılmış Visa Platinum, Visa Signature, Visa Platinum Business, Visa Signature Business və Visa Infinite ödəniş kartlarıdır.

**Messencer** – Viber, Telegram da daxil olmaqla, ani mesajlaşma və video mübadiləsi üçün istifadə edilən mobil proqramdır.

**Təşkilatçı** –«İNFOKUS» MMC, hüquqi şəxsin identifikasiya kodu: 36563986, ünvan: Sportivnaya meydanı, 1A, Kiyev ş., 01023, Ukrayna.

**Tərəfdaş** – «DRAGONPASS» Company Limited, hüquqi şəxsin identifikasiya kodu: 08643888, ünvan: 173a Ashley Road, Hale, Altrincham, Cheshire, WA15 9SD .

**Xidmət** – Tərəfdaş Proqramında rəqəmsal üzvlükdür.

**Qaydalar** – hazırkı Aksiya qaydaları.

**Aksiyanın keçirilmə müddəti** – 01.10.2024-cü il tarixi saat 00:00:01 -dən etibarən 31.12.2025-cü il saat 23:59:59-a qədər olan müddətdir.

**Aksiya İştirakçıları** – hazırkı Qaydalara uyğun olaraq Aksiyada iştirak etmək hüququna malik olan Kart Sahibləridir.

**Çatbot** – https://mssg.me/concierge__service ünvanında yerləşən və Messencer-də olan “Visa Concierge” çatbotudur.

### 1. Aksiyada iştirak qaydaları

**1.1.** Aksiyada iştirak etmək üçün sözügedən şəxs Aksiyanın keçirilmə müddəti ərzində aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

**1.1.1.** etibarlı Kart Sahibi olmalı;
**1.1.2.** Çatbotda olan daxili qeydiyyat mexanizminə uyğun olaraq Çatbotda qeydiyyatdan keçməli və ya qeydiyyatdan keçmiş olmalı;
**1.1.3.** Çatbotu açmalı, "Visa Travel" menyusuna keçməli və "Airport Lounges" düyməsinə basmalı;
**1.1.4.** hazırkı Qaydaları oxumalı;
**1.1.5.** Xidmətin mövcudluğunu yoxlamalı və ölkə ilə hava limanını seçməli;
**1.1.6.** “QR kodu əldə et" düyməsinə basmalı;
**1.1.7.** adı və soyadı (xarici pasporta əsasən), kart məlumatlarını (nömrə, etibarlılıq müddəti, buraxıldığı ölkə) göstərməli.

**1.2.** Hazırkı Qaydaların 1.1.1.-1.1.7-ci bəndlərində göstərilən hərəkətlər uğurla icra edildikdə, sözügedən şəxs Aksiya İştirakçısına çevrilir və Çatbotda QR kodu ilə bağlı fayl alır.

**1.3.** Hazırkı Qaydalar Aksiya İştirakçısı ilə Təşkilatçı/Sifarişçi/Tərəfdaş arasında rəsmi münasibətlərdə əsas sənəd hesab olunur. Hazırkı Qaydaların müddəalarının qəbulu 1.1.1.-1.1.7-ci bəndlərdə göstərilən hərəkətlərin ardıcıllıqla yerinə yetirilməsi yolu ilə həyata keçirilir.

**1.4.** Qəbul könüllü şəkildə həyata keçirilir və hazırkı Qaydaların şərtləri üzrə yazılı müqavilənin bağlanmasını özündə ehtiva edir.

**1.5.** Qaydaların qismən qəbuluna yol verilmir.

**2. QR kodundan istifadə xüsusiyyətləri**

**2.1.** Aksiya İştirakçısı Aksiyanın keçirilmə müddəti ərzində istənilən vaxt bir dəfə QR kodu əldə edə bilər. QR kodu alındığı tarixdən etibarən 24 saat ərzində etibarlıdır.

**2.2.** QR kodu Təşviqat kampaniyasının İştirakçısı tərəfindən ancaq öz məqsədləri üçün istifadə edilə bilər, iş məqsədilə istifadə edilə bilməz.

**2.3.** QR kodu Təşviqat Kampaniyası Müddətində başqasına köçürülə, artırıla, nəyəsə əlavə edilə bilməz yaxud pul və ya digər təzminat növünə tabe edilə bilməz.

**2.4.** QR kodu biznes zallara giriş zəmanəti vermir və Aksiya şərtlərinə uyğunluq üzrə əlavə yoxlamanın aparılmasını tələb edir.

**2.5.** Dövriyyə limiti hər bir Bank tərəfindən ayrıca müəyyən edilir. Aksiya İştirakçısı sözügedən dövriyyə limitini Kartı buraxan Bankla dəqiqləşdirməlidir. Sözügedən dövriyyə limitinə əməl etmədikdə, Aksiya İştirakçısı ümumi əsaslarla hava limanındakı gözləmə zallarının xidmətlərini ödəyir.

**3. Tərəflərin məsuliyyəti**

**3.1.** Aksiya İştirakçısı təqdim olunan məlumatların düzgünlüyünə və Kartdan istifadə hüququna görə Ukraynanın mövcud qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyəti daşıyır.

**3.2.** Vergilərin, rüsumların və icbari ödənişlərin ödənilməsi qüvvədə olan qanunvericiliyin müddəaları ilə üzərinə müvafiq öhdəlik qoyulmuş şəxs tərəfindən həyata keçirilir.

**3.3.** Sifarişçi/Tərəfdaş/Təşkilatçı Aksiya İştirakçısından asılı olmayan səbəblərə görə QR kodundan onun istifadə edə bilməməsinə görə, o cümlədən, lakin bununla məhdudlaşmayaraq, verifikasiya cihazının nasazlığı, uçuşun ləğvi, başqa vaxta keçirilməsi və ya gecikməsi, hava limanının iş rejiminin dəyişdirilməsi, mövcud qanunvericiliyin müddəalarının pozulması, dövriyyənin olmaması və s. səbəblərə görə məsuliyyət daşımır.

**4. Şəxsi məlumatların emalı**

**4.1.** Aksiyanın keçirilməsi çərçivəsində Aksiya İştirakçısı onun şəxsi məlumatlarının emalı üçün ayrıca əsas hesab edilən hazırkı Qaydaların şərtlərini uyğun olaraq bağlanmış müqavilə əsasında Təşkilatçıya və Tərəfdaşa aşağıdakı şəxsi məlumatları təqdim edir: ad, soyad (xarici pasporta əsasən), Kart rekvizitləri (nömrə, etibarlılıq müddəti, buraxıldığı ölkə). Hazırkı məlumatların işlənməsi qaydaları çatbotda olan məlumatların işlənməsi qaydalarının bir hissəsidir.

**4.2.** 4.1-ci bənddə göstərilən şəxsi məlumatların emalı İştirakçının Aksiyada iştirak hüququnu reallaşdırmaq məqsədilə Aksiyanın keçirilmə müddəti ərzində həyata keçirilir. Şəxsi məlumatların toplanması, emalı, ötürülməsi (Təşkilatçı və Tərəfdaşın xarici serverlərinə) hazırkı Qaydaların şərtlərini icra etmək məqsədilə həyata keçirilir. Təşkilatçı şəxsi məlumatların sahibi, Tərəfdaş isə operatoru hesab olunur. Tərəfdaşın şəxsi məlumatların emalı ilə bağlı fərdi siyasəti var, lakin istənilən halda şəxsi məlumatların emalı bu Qaydalara zidd şəkildə həyata keçirilə bilməz. Aksiya İştirakçısı Tərəfdaşın şəxsi məlumatların emalı siyasəti ilə aşağıdakı linkdən tanış ola bilər: https://dragonpassgo.com/content/privacy-policy.

**4.3.** Hazırkı Qaydaların 1.1-ci bəndində göstərilən hərəkətləri yerinə yetirməklə, Aksiya İştirakçısı şəxsi məlumatlarının emalı üçün göstərilən prosedurla razılaşdığını bildirir və mövcud qanunvericiliklə ona verilmiş bütün hüquqlarla tanış olduğunu təsdiqləyir.

**5. Digər müddəalar**

**5.1.** Təşkilatçı hazırkı Aksiya üzrə öhdəlikləri yerinə yetirmək üçün üçüncü şəxsləri bu prosesə cəlb etmək hüququna malikdir.

**5.2.** Hazırkı Qaydalar birmənalı şəkildə təfsir edilmədikdə, mübahisəli məsələlər və/və ya Qaydalarla tənzimlənməyən məsələlər ortaya çıxdıqda, Aksiya Təşkilatçısı/Sifarişçisi belə məsələlərlə bağlı yekun qərar qəbul etmək hüququnu özündə saxlayır. Aksiya Təşkilatçısının/Sifarişçisinin bu qərarı qətidir və ona qarşı iddia irəli sürülə bilməz.

**5.3.** Sifarişçi və Təşkilatçının qarşılıqlı razılığı ilə Aksiyanın keçirilmə müddəti dəyişdirilə və Aksiyaya vaxtından əvvəl xitam verilə bilər. Aksiyanın keçirilmə müddətində dəyişikliklər və ya onun vaxtından əvvəl dayandırılması yalnız çatbotda dərc olunduqda mümkündür.

**5.4.** Hazırkı Qaydalar və onlara edilən dəyişikliklər tanışlıq məqsədilə çatbotda yerləşdirilir.

**5.5.** Kart Sahibi tərəfindən Xidmətlərin üçüncü tərəfə ötürülməsini yaxud həmin üçüncü tərəfin Xidmətlərdən istifadəsini Bank/Sifarişçi/Təşkilatçı/Tərəfdaş məhdudlaşdırmır (əgər Bank tərəfindən belə imkan təmin edilibsə), lakin Kart Sahibi Xidməti əldə edən şəxslərdən biri olmalıdır, əks halda belə üçüncü tərəf yaxud Kard Sahibinə məhdudiyyətlər tətbiq oluna bilər.